***PSİXOLOGİYA***
***ПСИХОЛОГИЯ***
***PSYCHOLOGY***

*UOT 159.9*

***Elxan Bəylər oğlu Bəylərov***
*psixologiya elmləri doktoru*
*Azərbaycan Respublikası Təhsil İnstitutunun*
*Psixologiya və xüsusi təhsil şöbəsinin müdiri*
*https//orcid.org/0000-0002-6799-5511*

***Ayna Abuş qızı Hümbətova***
*Azərbaycan Respublikası Təhsil İnstitutunun*
*Təlimin nəzəriyyəsi və metodikası şöbəsinin aparıcı elmi işçisi*
*psixologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0001-8038-8962*
https://doi.org/10.69682/azrt.2024.91(1).177-183

## MƏKTƏBDƏ PSİXOLOJİ XİDMƏTİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

***Эльхан Бейлер оглы Бейлеров***
*доктор психологических наук*
*заведующий кафедрой Психологии и специального образования*
*Института Образования Азербайджанской Республики*

***Айна Абуш гызы Гумбатова***
*ведущий научный сотрудник отдела теории и методики обучения*
*Института Образования Азербайджанской Республики*
*доктор философии по психологии*

## ВОПРОСЫ ОРГАНИЗАЦИИ ПСИХОЛОГИЧЕСКОЙ СЛУЖБЫ В ШКОЛЕ

***Elkhan Baylar Baylarov***
*doctor of psychological sciences, head of the department of Psychology*
*and special education at the Institute of Education of the Republic of Azerbaijan*

***Ayna Abush Humbatova***
*leading researcher of the department of Theory and methodology of training*
*of the Institute of Education of the Republic of Azerbaijan*
*doctor of philosophy in pedagogy psychology*

## ISSUES OF ORGANIZATION OF PSYCHOLOGICAL SERVICE IN SCHOOL

**Xülasə.** Təhsildə çətinliklərlə qarşılaşan şagirdlərin intellektual və şəxsi emosional inkişafının fərdi-psixoloji xüsusiyyətlərini öyrənmək, eləcə də sinifdə və qruplarda sosial-psixoloji mühiti təmin etmək məktəbdə psixoloji xidmətin vəzifələrindən hesab olunur. Məqalədə psixoloqun məktəbdə psixoloji işin, əlverişli psixoloji inkişafın mühitinin təşkili üçün rəhbərlik, müəllim, şagird və valideynlərlə birgə fəaliyyətinin keyfiyyəti tədqiq edilmişdir.
***Açar sözlər:*** *psixoloji xidmət, psixoloq, müəllim, şagird, valideyn, direktor*

**Резюме.** Основной задачей психологической службы в школе является изучение индивидуально-психологических особенностей интеллектуального и личностно-эмоционального развития учащихся, столкнувшихся с трудностями в обучении, обеспечение социально-психологической среды в классах и

группах. В статье изучено качество работы психолога в школе с целью организации благоприятной среды психологического развития совместно с руководством, учителями, учащимися и родителями.

***Ключевые слова:*** *психологическая служба, психолог, педагог, ученик, родитель, директор*

**Summary.** The main task of the psychological service at the school is to study the individual-psychological characteristics of the intellectual and personal emotional development of students who encounter difficulties in education, to provide a social-psychological environment in classes and groups. In the article, the quality of the psychologist's work in the school, in order to organize a favorable psychological development environment, together with the management, teachers, students and parents was studied.

***Keywords:*** *psychological service, psychologist, teacher, student, parent, principal*

Dəyərlər sisteminin dəyişməsi, şagirdlərin təlimə münasibətlərinin zəifləməsi, müəllim-şagird, eləcə də müəllim-müəllim, müəllim-valideyn münasibətlərində çətinliklər bu sahədə müxtəlif istiqamətli ciddi psixoloji tədqiqatların aparılmasını, bu sahədə yeni, mütərəqqi yanaşmaların məktəb təcrübəsinə tətbiqini aktual edir. Bu məsələlər eyni zamanda təhsil sistemində psixoloji xidmətin əhatə dairəsinin genişləndirilməsini və onun keyfiyyətinin yüksəldilməsini vacib məsələlərdən birinə çevirir. Yalnız bu işləri uğurla həyata keçirməklə gənc nəslin təlim və tərbiyəsində müvəffəqiyyətə nail olmaq mümkündür.

Bu istiqamətdə aparılan tədqiqat çərçivəsində keçirilən sorğuların nəticələri göstərdi ki, bu məsələlərlə bağlı mövcud vəziyyətdə ziddiyyətli hallar, valideyn, müəllim, psixoloq və şagirdlərin bir-biri ilə münasibətlərində müəyyən problemlər, anlaşılmazlıqlar, qeyri-adekvat yanaşmalar vardır. Bu nəticələrin təhlili göstərdi ki, məktəbdə psixoloji xidmətin keyfiyyətinin artırılması üçün məktəb rəhbərliyi, pedaqoji heyət və psixoloq əməkdaşlığı istiqamətində səlahiyyət və məsuliyyət faktoru üzərində müəyyən təxirəsalınmaz işlərin görülməsi zəruridir.

Ümumtəhsil məktəblərində psixoloji xidmət XX əsrin 80-ci illərinin sonu fəaliyyətə başladı. Məktəbdə psixoloji xidmət psixoloqun təlim-tərbiyə işinin keyfiyyətini yüksəltmək məqsədi ilə həyata keçirdiyi praktik fəaliyyət formasıdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 157 nömrəli qərarı ilə “Təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları” [3] adlı sənədin təsdiq edilməsinin davamı olaraq respublikamızın məktəblərində psixoloji xidmətin keyfiyyətinin artırılması istiqamətində müxtəlif layihələr həyata keçirilmiş və tədqiqatlar aparılmışdır.

Psixoloji xidmət işinin səmərəliliyinə psixoloqun təhsil prosesinin bütün iştirakçıları: müəllimlər, şagirdlər və onların valideynləri ilə qarşılıqlı əlaqəsi təsir göstərir. Bu qarşılıqlı əlaqə bilavasitə psixoloji xidmətin vəzifələrinin həllinə kömək etməklə yanaşı, təhsilin keyfiyyətinin yüksəldilməsinə də təsir göstərir. Şagirdlərə fərdi yanaşma məktəbin psixoloji və metodik xidmətlərinin kəsişmə zonası sayıla bilər. Eyni zamanda, onların fəaliyyətlərinin əlaqələndirilməsi, hər iki xidmətin iş perspektivlərinə və onun həyata keçirilməsi yollarına ümumi baxışının olması çox vacibdir. Psixoloq şagirdlərin özünüdərk, konfliktlərdən yayınma, ünsiyyət problemlərinin həllinə, peşə seçiminə və s. bu kimi məsələlərinə dəstək verməklə onların şəxsiyyət kimi formalaşmasına köməklik göstərməlidir. Eyni zamanda o, valideynlərə ailədə uşaq tərbiyəsi ilə bağlı məsləhətlər verə və maarifləndirmə işi də aparmalıdır. Müəllimlərin də, bir çox hallarda psixoloqun köməyinə ehtiyacları yarana bilər. Onlar müxtəlif problemləri olan şagirdlərlə daha səmərəli işləmək üçün psixoloqdan məsləhət almağa ehtiyacları olur. Beləliklə, məktəbdə tədris prosesinin səmərəli həyata keçirilməsi üçün psixoloji xidmətin düzgün təşkili olduqca vacib məsələlərdən biridir.

Məktəbdə psixoloji xidmətin təşkili və keyfiyyəti ilə bağlı cari vəziyyətin öyrənilməsi üçün Azərbaycan Respublikasının Təhsil İnstitutu təsadüfi seçmə üsulu ilə Bakı şəhərinin 20 ümumtəhsil məktəbində tədqiqat aparıb. Qeyd edək ki, məktəblərin 10 mərkəzi, 10 isə mərkəzdənkənar məktəblərdir. Tədqiqata 1888 şagird, 198 müəllim, 35 psixoloq (Diaqram 2), 199 valideyn, 20 direktordan ibarət heyət cəlb olunub.




Diaqram 1-də tədqiqata cəlb olunan 29% 7 sinif, 37% 8-ci sinif, 31% 9-cu sinif, 3% 10-cu sinif şagirdləridir. Aparılan tədqiqat nəticəsində müəyyən edilmişdir ki, məktəbdə psixoloji xidmətin keyfiyyətinin artırılması üçün məktəb rəhbərliyi, pedaqoji heyət və psixoloq əməkdaşlığı istiqamətində müəyyən işlər aparılmalıdır. Diaqram 2-də rəyi soruşulan psixoloqların staj üzrə göstəriciləri verilmişdir (58% 0-7 il, 23%- 8-15 il, 10% 16-23 il, 9% 24-50 il). Eyni zamanda, sorğu nəticəsində əldə edilmiş ziddiyyətli yanaşmalar valideyn, müəllim, psixoloq və şagirdlərin bir-biri ilə əlaqələnməsində müəyyən problemlərin olduğunu göstərir.




Tədqiqatla bağlı bəzi nəticələri aşağıdakı kimi təsnifatlaşdırmaq olar. Sorğuda iştirak edən psixoloqların 49%-i məktəbdə psixoloji xidmət göstərmək üçün yaradılan şəraiti yüksək, 51% -i isə qənaətbəxş hesab edir (Diaqram 3.).

Məktəbdə psixoloji mühiti nə dərəcədə əlverişli hesab edirsiniz sualını direktorların 10%-i aşağı, 35% qənaətbəxş, 60%-i yüksək qiymətləndirir.



Məktəbdə əlverişli psixoloji iqlimin yaradılmasında psixoloqların rolu araşdırılarkən məlum olub ki (Diaqram 4.), psixoloqların 40 %-i məktəbdəki sağlam psixoloji iqlimin yaradılmasında özünün rolunu yüksək hesab edir. 60%-nin fikrincə psixoloji iqlimin yaradılmasın fəaliyyəti qənaətbəxşdir. 3% psixoloq məktəbdə sağlam psixoloji iqlimin yaradılmasında öz rolunu kafi qiymətləndirir. Məktəb direktorlarının 75%-i, müəllimlərin isə 72%-i əlverişli psixoloji iqlimin yaradılmasında psixoloqların rolunu yüksək qiymətləndirirlər.

Diaqram 4. Əlverişli psixoloji mühitin yaradılmasında psixoloq əməyinin qiymətləndirilməsi




Sual doğuran məsələlərdən biri budur ki, psixoloqlar onlar üçün yaradılan şəraitdən, əsasən, razı olduqlarını ifadə etsələr də əlverişli psixoloji mühitin yaradılmasında özlərinin əməyini direktor və müəllimlə müqayisədə daha aşağı qiymətləndiriblər.

Tədqiqat zamanı hər hansı problemlə qarşılaşanda şagirdlərin 17%-i məktəb psixoloquna daha çox müraciət etdiklərini qeyd ediblər. 21% şagirdin psixoloqa müraciət göstəricisi aşağıdır. 21% şagird isə çətinlik çəkərkən psixoloqa ümumiyyətlə müraciət etmədiyini bildirib. Fikrimizcə, müəllim, valideyn və şagird qruplarında yaşanılan problem situasiyalar zamanı psixoloqa müraciət sayının aşağı olması bu mədəniyyətin inkişaf etdirilməsinə ehtiyacın olduğunu göstərir.

Digər tərəfdən daha çox hansı qrup (şagird, müəllim, valideyn) ilə işləmə intensivliyi yoxlanılan psixoloqların 80 %-i məhz şagird qrupunda problemlərin çoxluğunu qeyd ediblər (Diaqram 5.). Məzmun baxımından problemlər daha çox özünüdərketmə, özünütərbiyə ilə əlaqədardır. İkinci qrup olaraq psixoloqlar müəllim, pedaqoji heyətlə işi qeyd ediblər. Şagirdlərin intellektual səviyyələrinin müxtəlifliyi, risk qrupuna aid olan uşaqların xüsusiyyətləri müəllimdən onları hərtərəfli öyrənməyi və düzgün yanaşmağı tələb edir. Rəyi soruşulan psixoloqların 63% müəllim-şagird konfliktləri ilə bağlı mütəmadi işin aparıldığını qeyd ediblər. Valideyn heyəti ilə işləyən psixoloqların 46%-i apardıqları işin keyfiyyətini qənaətbəxş hesab edirlər. Psixoloqlar daha çox kiçikyaşlı məktəbli qrupunun valideynləri ilə əməkdaşlıq edirlər.

Diaqram 5. Psixoloqun qruplarla işləmə intensivliyi



Tədqiqat zamanı 87% şagird məhz daha çox çətin hallarda psixoloq köməyinin faydalı olduğunu düşünür. Psixoloqa müraciət edən 33% şagird psixoloq xidmətindən razı qaldığını, 12% şagird isə psixoloq xidmətindən razı qalmadığını bildiriblər. 23% şagird qismən razı qaldığını, 34% şagird isə ümumiyyətlə psixoloqa müraciət etmədiyini bildirib. Lazım gələrsə, yenidən psixoloqa müraciət edərsiniz sualına 29% şagird öz müsbət münasibətini bildirib (Diaqram 6.).

Diaqram 6. Psixoloqa müraciət




Tədqiqat göstərdi ki, bir çox məsələlərdə mərkəzi məktəblərlə müqayisədə mərkəzdənkənar məktəblərdə psixoloji xidmətin səviyyəsi daha yüksəkdir. Bu həm də onunla izah edilə bilər ki, mərkəzi məktəblərdə psixoloq-şagird nisbəti 1/980, mərkəzdənkənar məktəblərdə 1/742 kimidir. Bu o deməkdir ki, psixoloq-şagird nisbəti nə qədər yüksəkdirsə, psixoloji xidmətin keyfiyyəti bir o qədər yüksək olur. Tədqiqatda psixoloji xidmətin keyfiyyət göstəricisi kimi psixoloqa müraciət sayının bu müraciətdən məmnunluq sayına nisbəti qəbul edilmişdir. Təhlillərdən görünür ki, mərkəzdənkənar məktəblərdə psixoloqa müraciət olunma faizi mərkəzi məktəblərlə müqayisədə daha yüksəkdir. Eyni zamanda müraciət sayı artdıqca, müraciətdən məmnunluğu göstəricisi artır.

Direktor (50%) və müəllimlər (53%) müəllim-şagird konfliktində psixoloqun köməyini psixoloqun öz fikrindən (62%) fərqli olaraq aşağı qiymətləndirirlər (Diaqram 7.). Şagird-şagird konfliktində də psixoloqlar öz fəaliyyətlərini daha yüksək (82%) qiymətləndirirlər. Müəllimlərin 52%-i, direktorların 60%-i şagird-şagird konfliktində məktəb psixoloqunun köməyini faydalı hesab edir. Müəllim-valideyn problemində isə psixoloqlar öz fəaliyyətlərini daha zəif (35%), direktor (50%), müəllimlər isə (46%) bu köməyin daha səmərəli olduğunu düşünürlər.

Diaqram 7. Şagird, müəllim, valideyn arasında yaranan problem zamanı psixoloqun köməyi



Məktəbdə sağlam psixoloji iqlimin yaradılması müəllim-şagird-psixoloq əməkdaşlığı ilə yanaşı, direktor, psixoloq, müəllim heyətinin məqsədyönlü fəaliyyətindən asılıdır. Fikrimizcə, məktəb rəhbərliyi pedaqoji kollektivdə psixoloji işin təşkili ilə bağlı maarifləndirmə işini aktual saxlamalı və ona bilavasitə dəstək verməlidir. Məktəb psixoloqlarının vəzifə və səlahiyyətləri ilə bağlı pedaqoji kollektivdə maarifləndirmə işləri aparılmalıdır. Müəllim-psixoloq əməkdaşlığında məsuliyyət-səlahiyyət bölgüsündə obyektivlik gözlənilməli, təhsil mühitinin gerçəklikləri nəzərə alınmalıdır.

Gələcək peşəseçimi ilə bağlı şagirdlərin 31%-i psixoloqa müraciət etmədiyini, 38%-isə müraciət zamanı psixoloq məsləhətindən razı qaldığını qeyd ediblər (Diaqram 8.). Psixoloqların 87%-i isə peşə seçimi ilə bağlı şagirdlərlə apardıqları işi yüksək qiymətləndiriblər. Qeyd etmək lazımdır ki, dünya təcrübəsində peşəseçimində şagirdlərin fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınmasının vacibliyi haqqında psixoloqun aparmalı olduğu maarifləndirmə işi həmişə diqqət mərkəzində saxlanılır (N. Yılmaz, A. Bedel 2021.) [6] (M. Çakır, K. Uzun 2021.) [5] Fikrimizcə, respublikamızda bu istiqamətdə görüləsi işlər çoxdur. Çünki bu məsələ ilə bağlı hələ də psixoloqa müraciət səviyyəsi qənaətbəxş deyil.

Diaqram 8. Peşəseçimi ilə bağlı şagird müraciəti, psixoloqun apardığı iş




Aparılan tədqiqatın nəticələrinin təhlili aşağıdakı fikirləri formalaşdırmağa imkan verir.

Məktəbdə psixoloqun şəxsi kabinetinin, şagirdlərlə işləmək üçün müvafiq saatının və üzərinə qoyulan məsuliyyətə uyğun müvafiq səlahiyyətinin olması psixoloji xidmətinin keyfiyyətini şərtləndirən mühüm amildir.

Məktəbdə sağlam psixoloji iqlimin yaradılması müəllim-şagird-psixoloq əməkdaşlığı ilə yanaşı, direktor-psixoloq-müəllim heyətinin məqsədyönlü fəaliyyətindən asılıdır. Məktəb rəhbərliyinin pedaqoji kollektivdə psixoloji işin təşkili ilə bağlı maarifləndirmə işini aktual saxlaması və ona bilavasitə dəstək verməsi məktəbdə sağlam psixoloji mühit üçün zəmin yaradar.

Məktəb rəhbərliyi tərəfindən məktəb psixoloqlarının vəzifə və səlahiyyətləri ilə bağlı pedaqoji kollektivdə maarifləndirmə işlərinin aparılması üçün şəraitin yaradılması, müəllim-psixoloq əməkdaşlığında məsuliyyət-səlahiyyət bölgüsünün obyektiv olmasına, sağlam psixoloji – emosional mühitin formalaşmasına öz təsirini göstərəcəkdir.

Psixoloqa müraciət sayının bu müraciətdən məmnunluq sayına nisbəti psixoloji xidmətin keyfiyyət göstəricisi kimi qəbul edilə bilər. Məktəbdə psixoloji xidmətin keyfiyyətinin yüksəldilməsi üçün psixoloq-şagird nisbətinin yüksəldilməsi məqsədəuyğun hesab edilir.

Müəllim, valideyn və şagird qruplarında yaşanılan problemli situasiyalar zamanı psixoloqa müraciətin az olunması təhsil mühitində psixoloqa müraciət mədəniyyətinin inkişaf etdirilməsinə ehtiyac olduğunu göstərir.

Peşəseçimində şagirdlərin fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınması ilə bağlı şa-

gird və müəllim qruplarında mütəmadi maarifləndirmə işi aparılmalıdır. Bu maarifləndirmə işində peşələrin psixoloji xüsusiyyətləri barədə şagirdlərə məlumat verilməli, davranış xüsusiyyətləri barədə təsəvvür formalaşdırılmalıdır.

Beləliklə, təlim-tərbiyə sahəsində məktəbdə aparılan işin səmərəliliyini yüksəltmək, şagirdlərin qarşılaşdıqları çətinliklərin psixoloji səbəblərini aşkara çıxarmaq və onların aradan qaldırılması yollarının müəyyənləşdirmək vacibdir. Sosial cəhətdən fəal, yüksək milli-mənəvi və ümumbəşəri dəyərlərə malik şəxsiyyətin formalaşdırılmasında pedaqoji kollektivə köməklik göstərmək üçün məktəbdə psixoloji xidmət işinin düzgün təşkili olduqca əhəmiyyətlidir. Bu isə məktəb psixoloqunun fəaliyyəti üçün yaradılan şəraitdən, məktəb psixoloquna verilən səlahiyyət və məsuliyyət faktorlarının nisbətindən asılıdır.

**Problemin aktuallığı.** Təhsilin keyfiyyətinin, şagirdlərin təlim motivlərinin və nailiyyətlərinin yüksəldilməsi, təlim iştirakçıları arasında şəxsiyyətlərarası münasibətlərin daha da yaxşılaşdırılması üçün məktəbdə psixoloji xidmətin təşkili məsələsi mühüm əhəmiyyəti kəsb edir.

**Problemin yeniliyi.** Məqalədə psixoloji işin təşkili zamanı psixoloqun qarşılaşdığı mövcud problemlər təhlil edilmiş, çatışmazlıqların aradan qaldırılması üçün müvafiq yollar göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məktəb psixoloqu öz vəzifələrini yerinə yetirmək, qarşıya qoyduğu məqsədə çatmaq, daha doğrusu, təhsilalanların psixoloji sağlamlığına, təhsil uğurlarına nail olmaq üçün məktəb rəhbərliyi, müəllim və valideynlərlə birgə fəaliyyət göstərməlidir. Aparılan tədqiqatın nəticələrindən gənc tədqiqatçılar, doktorantlar istifadə edə bilər.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // – Bakı: Kurikulum, – 2013. № 4, – s. 3-15.
2. Azərbaycan Respublikasının Təhsil Haqqında Qanunu // – Bakı, – 2018. 12 iyun
3. “Təhsil müəssisələrində psixoloji xidmətin təşkili Qaydaları” Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı Bakı şəhəri, 30 aprel 2020-ci il, № 157
4. Əmrahlı L.Ş. Psixoloji xidmətin əsasları / L.Əmrahlı. I kitab. – Bakı. – 2006.
5. Çakır, M. Mesleki Grup Rehberliği Programına Katılan Lise Öğrencilerinin Mesleki Kararsızlık Düzeylerinin İncelenmesi /M. Çakır, K. Uzun//Academia Eğitim Araştırmaları Dergisi, – 2021. №2, – s. 442-456. https://doi.org/10.53506/egitim.918375
6. Yılmaz, N. Lise öğrencilerinin mesleki kararsızlıklarını açıklamada kariyer denetim odağı ile meslek seçimine ilişkin akılcı olmayan inançların rolü / N. Yılmaz, A.Bedel // OPUS – Uluslararası Toplum Araştırmaları Dergisi, – 2021. №17(34), -s. 1023-1046. https://doi.org/10.26466/opus.800873
7. Ahmet, Ş. Okullarda rehberlik ve psikolojik danışma / A. Şirin. – Ankara: Nobel Akademik Yayıncılık, – 2018. – 168 s.
8. Halil, E. Okullarda Rehberlik ve Psikolojik Danışma Hakkında Bilgiler / E. Halil, M. Yüksel – Ankara: Nobel, – 2022. – 444 s.


**E-mail:** abusova_a@mail.ru
**Rəyçilər:** *psixol.ü.fəls.dok., dos.* **A.R. Bünyatova,**
*psixol.ü.fəls.dok., dos.* **İ.H. Sultanova**
**Redaksiyaya daxil olub:** 22.01.2024.